***ALİ MƏCLİSİN İCLASI***

*29 dekabr 2025-ci il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli media nümayəndələri!

Hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il payız sessiyasının doqquzuncu iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 44 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 44 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli deputatlar, bildiyiniz kimi, iclasın gündəliyinə 3 məsələ daxildir. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Hörmətli həmkarlar, gündəliyin birinci məsələsi üçüncü oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanaraq göndərilmiş qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınıb.

Gündəliyin birinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

"Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 24 dekabr 2025-ci il tarixdə keçirilən plenar iclasında ikinci oxunuşda qəbul edildikdən sonra Ali Məclisin Daxili Nizamnaməsinin tələblərinə uyğun olaraq ziddiyyətlərin aradan qaldırılması və redaktə edilməsi məqsədi ilə aparıcı komitəyə qaytarılmışdır. Hüquq siyasəti komitəsinin 26 dekabr 2025-ci il tarixdə iclası keçirilmiş, qanun layihəsinin üçüncü oxunuşa hazırlanması ilə bağlı işlər görülmüşdür. Keçirilən iclasda deputatlar tərəfindən "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə hər hansı təklif və ya irad bildirilməmişdir. Bu səbəbdən qanun layihəsi üçüncü oxunuşda baxıla bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.06 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı səsvermədə iştirak edən 44 deputat lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin illik fəaliyyətidir.

Bununla bağlı məlumat vermək üçün söz Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynliyə verilir.

Buyurun, Ülvi müəllim!

**Ü.Hüseynli,** *Ali Məclis Aparatının rəhbəri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar**!**

İcazənizlə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il üzrə fəaliyyəti barədə məlumatı diqqətinizə çatdırım.

2025-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən 11 qanun və 16 qərar qəbul edilmişdir. Qanunlardan 9-u dəyişikliklərlə, 2-si isə büdcə və onun icrası ilə bağlı olmuşdur.

“Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında”, “Publik hüquqi şəxslər haqqında” və “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının qanunlarında müvafiq dəyişikliklər edilmişdir.

Qəbul edilən qərarların bəziləri Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibi ilə bağlı olmuş, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri vəzifəyə təyin və vəzifədən azad olunmuş, digər qərarlar isə Ali Məclisin işinin təşkili ilə bağlı olmuşdur.

2025-ci ildə Ali Məclisin rəhbəri tərəfindən 20 fərman və 163 sərəncam imzalanmışdır. Həmin fərman və sərəncamlarla 21 hüquqi akt (13 fərman və 8 sərəncam) ləğv edilmiş, 21 hüquqi aktda (12 fərman və 9 sərəncam) dəyişiklik edilmiş, 6 dövlət orqanının əsasnamə və ya nizamnaməsi yenidən təsdiq edilmiş və ya dəyişdirilmiş, 5 qurum ləğv edilmiş, 2 yeni qurum yaradılmışdır.

Belə ki, əsasnaməsi və yaxud nizamnaməsi yenidən təsdiq edilmiş dövlət qurumları-Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, “N-Telekom” publik hüquqi şəxsi, Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti, Dövlət Ekoloji Ekspertiza Agentliyidir. Sadaladığım qurumların əsasnamə və yaxud nizamnamələrində dəyişiklik edilmiş, müvafiq bəndlər əlavə olunmuş və idarəetmənin ölkənin müvafiq qurumları ilə uyğun qurulması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Ləğv edilən dövlət qurumları isə Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti, “Aqrar Sığorta Fondu” qeyri-kommersiya hüquqi şəxsi, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyində Naxçıvan Duz Muzeyi, “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsi, “Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi” publik hüquqi şəxsidir. Haliyədə bunlarla bağlı ləğvetmə prosesinin davam etdiyi qurumlar da vardır. Həmçinin mərkəzi idarəetməyə birləşmə ilə bağlı tədbirlər də görülür. Ali Məclis tərəfindən hüquqi aktlar qəbul olunub, lakin ləğvetmə prosesi hələ də davam etdirilir və 2026-cı ilin I rübü ərzində bu proseslərin tamamilə başa çatdırılacağı nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Naxçıvan Poçt və Telekommunikasiya Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır. Diqqətinizə çatdırım ki, Cəmiyyət "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Naxçıvan Telekom" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi" publik hüquqi şəxsini birləşdirməklə yaradılmışdır və yaradılan cəmiyyət hər 3 qurumun fəaliyyətini tənzimləyəcək və həyata keçirəcəkdir.

"Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti "Naxçıvan İpoteka Fondu" qeyri-kommersiya hüquqi şəxsinə çevrilmə yolu ilə yenidən təşkil edilmişdir.

2025-ci ildə Ali Məclisdə vətəndaş müraciətləri və vətəndaşlarla iş sahəsində görülən tədbirləri diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları tərəfindən seçildikləri ərazilər üzrə 462 vətəndaş qəbulu keçirilmiş, 1745 sakinin 1774 məsələ üzrə müraciəti qeydə alınmışdır. Qaldırılan məsələlərlə bağlı aidiyyəti orqanlara 135 deputat sorğusu göndərilmişdir.

2025-ci ilin 1 yanvar tarixindən 25 dekabr tarixinədək Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 240-ı ərizə, 109-u şikayət, 12-si təklif olmaqla, ümumilikdə, 361 müraciət daxil olmuş və baxılmışdır. Daxil olan müraciətlərin 261-i elektron məktub, 85-i məktub, 15-i isə teleqram formasında olmuşdur. Onlardan 129-u Naxçıvan şəhərindən, 65-i Şərur, 56-sı Babək, 16-sı Ordubad, 26-sı Culfa, 10-u Kəngərli, 19-u Şahbuz, 2-si Sədərək, 38-i isə ölkənin digər rayonlarından daxil olmuşdur.

Qeyd olunan müraciətlərdən 124-ü və ya 35 faizi əmək hüquqlarının pozulması və işlə təminat, 41-i və ya 11 faizi mülkiyyət hüquqlarının pozulması və sahibkarlıq fəaliyyətinə maneələr, 90-ı və ya 25 faizi sosial təminat, 16-sı və ya 4 faizi içməli və suvarma suyu ilə təminat, 6-sı və ya 2 faizi mənzil təminatı, 12-si və ya 3 faizi təhsil sahəsi, 15-i və ya 4 faizi tibbi xidmətlə təminat, 57-si və ya 16 faizi isə digər məsələlərlə bağlı olmuşdur.

Hörmətli Bəxtiyar müəllim,

Başda siz olmaqla Ali Məclisin deputatlarını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı adından qarşıdan gələn 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibəti ilə təbrik edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun!

Gündəlikdə duran üçüncü məsələ cari məsələlərlə bağlıdır.

Deputatlardan cari məsələlərlə əlaqədar çıxış etmək istəyən və ya təklifi olan varmı?

Buyurun, Rauf müəllim!

**R.Cəfərov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

Bu gün Ali Məclisin 2025-ci il üçün nəzərdə tutulan sonuncu plenar iclasıdır. Hər birinizi 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Ümummilli Lider Heydər Əliyevin həmrəylik ideyalarını yaşadan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə milli həmrəylik daha da möhkəmlənərək dövlət idarəçiliyinin əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Dövlət başçımızın çoxvektorlu xarici siyasət doktrinası sayəsində ötən dövrdə dünyada ölkəmizin dostlarının sayı çoxalmış, respublikamızla müttəfiqlik etmək istəyən ölkələrin sırasına yeniləri əlavə olunmuşdur.

Başa vurduğumuz 2025-ci il ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi həyatında mühüm hadisələrlə yadda qaldı. Əsası Ümummilli Liderimiz tərəfindən qoyulan sosial-iqtisadi inkişaf strategiyasının Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin nəticəsində Azərbaycan bütün sahələrdə yeni-yeni uğurlara imza atdı. Eyni zamanda, 2025-ci il Vətən müharibəsində qazanılan tarixi Zəfərin 5-ci ildönümünün və Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünün qeyd olunduğu əlamətdar bir il kimi tarixə düşdü. Məhz bu mühüm tarixi hadisələri nəzərə alaraq cənab Prezident tərəfindən 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edildi.

Bu gün dövlət suverenliyimiz tam, ərazilərimiz bütöv, sərhədlərimiz toxunulmazdır. Bu, bir daha Azərbaycanın bütün sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Bu il Prezident cənab İlham Əliyev bir sıra xarici ölkələrə səfərlər etdi, beynəlxalq əhəmiyyətli tədbirlərdə, o cümlədən BMT tribunasından Azərbaycan həqiqətlərini dünyaya çatdırdı. Respublikamızın qlobal nüfuzu xeyli gücləndi, yeni dostlar, strateji tərəfdaşlar qazanıldı.

Prezident cənab İlham Əliyev 2025-ci ildə də işğaldan azad olunmuş ərazilərə çoxsaylı səfərlər etdi və genişmiqyaslı infrastruktur layihələrinin təməlini qoydu. Ümumilikdə, son 5 ildə dövlət başçısı azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, 177 müxtəlif təyinatlı layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib. İndiyədək yüzlərlə ailə doğma yurda qayıdıb, azad olunmuş ərazilərdə 62 mindən çox insan yaşayır. Yaxın illərdə həmin ərazilərə daha 140 min insanın köçürülməsi nəzərdə tutulur. Bütün bunlar "Böyük Qayıdış" Proqramının geniş perspektivindən xəbər verir. Dövlət başçımızın da dediyi kimi "Böyük Qayıdış" Proqramı bu gün dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır.

Hörmətli iclas iştirakçıları!

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 22 dekabr tarixli Sərəncamı ilə 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunub. Bu Sərəncam sadəcə təqvim ilini müəyyənləşdirmir, həm də milli memarlıq ənənələrimizin modern çağırışlarla vəhdətini göstərir, ölkəmizin daxili inkişaf fəlsəfəsini və strateji baxışını təzahür etdirir. 2026-cı ildə Azərbaycan həm də 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) kimi mötəbər tədbirə ev sahibliyi edəcək. Əminik ki, ölkə başçısının rəhbərliyi ilə Azərbaycan ötən il COP29 konfransı ilə qazandığı nailiyyətləri gələn il Ümumdünya Şəhərsalma Forumunda (WUF13) da təkrarlayacaq.

Hər birinizə 2026-cı ildə uğurlar arzulayıram.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Rauf müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Rza müəllim!

**R.Xudiyev.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar və iclas iştirakçıları!

Bu gün - Azərbaycan xalqının milli birlik və həmrəyliyinin rəmzi olan 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində keçirilən iclasımızda qeyd etmək istəyirəm ki, qarşıdan gələn bu əlamətdar tarix dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlını vahid amal - Vətən sevgisi, milli kimlik və birlik ideyası ətrafında birləşdirir.

31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün rəsmi bayram kimi təsis edilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi fəaliyyət göstərdiyi dövrdə bu günü xalqımızın milli sərvəti kimi qiymətləndirmiş, dünya azərbaycanlılarının birliyinin Azərbaycan dövlətinin möhkəmlənməsində mühüm rol oynadığını xüsusi vurğulamışdır. Dahi şəxsiyyət üçün həmrəylik təkcə ideya deyil, milli dövlətçilik fəlsəfəsinin əsas sütunlarından biri idi. Məhz bu baxımdan Ulu Öndər bildirirdi ki, hansı ölkədə yaşamasından aslı olmayaraq, hər bir azərbaycanlı öz ana dilini, dinini, milli adət və ənənələrini unutmamalı və onları təbliğ etməlidir.

Ulu Öndərin bizə miras qoyduğu həmrəylik ideyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Dövlət başçısının qətiyyətli siyasəti nəticəsində dünya azərbaycanlıları arasında əlaqələr güclənmiş, diaspor təşkilatlarının fəaliyyəti sistemli və məqsədyönlü xarakter almışdır. Cənab Prezident dəfələrlə vurğulamışdır ki, milli birlik və həmrəylik Azərbaycanın milli gücünün əsas mənbələrindən biridir və ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsində həlledici rol oynayır.

Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi qeyd etmək lazımdır. Mehriban xanım öz çoxşaxəli fəaliyyəti ilə həm ölkə daxilində milli birliyin möhkəmlənməsinə, həm də dünya azərbaycanlıları arasında mənəvi bağların gücləndirilməsinə mühüm töhfələr verir. Onun rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilən mədəni-humanitar layihələr, xüsusilə Heydər Əliyev Fondunun reallaşdırdığı tədbirlər milli dəyərlərimizin qorunmasına, Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasına və həmrəyliyin möhkəmlənməsinə xidmət edir.

Bu gün bir daha vurğulamaq istərdim ki, dünya azərbaycanlıları harada yaşamalarından asılı olmayaraq, Azərbaycan dövlətinin milli maraqlarını qorumalı, haqq səsimizi beynəlxalq ictimaiyyətə çatdırmalı və milli dəyərlərimizi yaşatmalıdırlar. Məhz bu birlik və həmrəylik siyasəti müasir dövrdə Azərbaycanın davamlı inkişafının və əldə etdiyi uğurların əsas dayaqlarından biridir.

Qarşıdan gələn 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bizə bir daha xatırladır ki, gücümüz birliyimizdədir. Bu gün yalnız bayram deyil, eyni zamanda milli məsuliyyətin, vətənpərvərliyin və gələcək nəsillərə ötürülən mənəvi mirasın təcəssümüdür.

Hörmətli iclas iştirakçıları,

Sonda qarşıdan gələn 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə dünya azərbaycanlılarını ürəkdən təbrik edir, Ümummilli Lider Heydər Əliyevin ideyalarına, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi dövlətçilik və birlik siyasətinə, eləcə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdə gördüyü dəyərli işlərə xalqımızın daim dəstək verdiyini və bu strateji yolun ardıcıl şəkildə davam etdiriləcəyini bildirmək istəyirəm.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Rza müəllim!

Deputatlardan əlavə çıxışı olan varmı?

Buyurun, Qafar müəllim!

**Q.Qənbərov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar!

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən təsis edilmiş və az sonra bütün ölkə miqyasında qəbul olunmuş 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü hər bir azərbaycanlıda öz Vətəninə məhəbbət, xalqına sədaqət, tarix və mədəniyyətinə hörmət kimi nəcib hissləri gücləndirməklə yanaşı, mənəvi-əxlaqi dəyərlərin sonrakı nəsillərə ötürülməsində də ciddi rol oynadı.

Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifi, XX əsrin sonlarına doğru Azərbaycan tarixinin və dövlətçiliyinin şərəfli səhifələrini yaradan Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkədə davamlı sabitlik və iqtisadi tərəqqinin əsası qoyulmaqla yanaşı, milli birliyə də nail olundu. Tezliklə “Azərbaycançılıq” anlayışı milli təfəkkür tərzinə çevrildi, Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar, mənəvi dayaq və güvənc yeri oldu. Bu mənada, ən yeni tariximizdə dünya azərbaycanlılarının milli həmrəyliyinə nail olunması Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən biridir.

Daha sonra Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında birliyin, həmrəyliyin ən böyük nümunəsi ordu quruculuğu sahəsində özünü göstərdi. Məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən ordu quruculuğu siyasətinə ilk dəfə Naxçıvandan başlanılmışdır. Bu uzaqgörən və prinsipial siyasət sonrakı illərdə müstəqil Azərbaycan Ordusunun formalaşması üçün möhkəm təməl rolunu oynadı.

Birliyimiz Ordumuzu daha da yenilməz, qüdrətli etdi. Ölkəmizdə xalq-ordu birliyinin nə qədər mükəmməl olduğu isə 44 günlük Vətən müharibəsində aydın göründü. Azərbaycan xalqının bu savaşda yeganə amal uğrunda ayağa qalxması, çəkici bir zindana vurması, həmrəy və bir olması Ordumuzu ruhlandırdı. Müzəffər Ordumuzun səngərdə, döyüş meydanında, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin siyasi arenada göstərdiyi şücaət, apardığı mübarizə və xalqın hərtərəfli dəstəyi və köməyi bu qələbədə böyük rol oynadı. Bu savaşda xalqın birliyi, həmrəyliyi həm Ordunun, həm də siyasi Liderin qələbəyə inamını qat-qat artırdı. İnam olan yerdə isə zəfər mütləqdir.

Cənab İlham Əliyev İkinci Qarabağ müharibəsi zamanı informasiya cəbhəsində də ciddi mübarizə apardı. Bu cəbhədə də xalqımız öz birliyini, Lideri ilə həmrəy olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Xüsusən dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, diaspor nümayəndələri haqq səsimizin dünyaya çatdırılmasında müstəsna xidmətlər göstərdilər. Bu mənada, qazanılan bütün bu uğurlar, nailiyyətlər milli həmrəyliyimizin və birliyimizin bəhrəsidir.

Hörmətli həmkarlar!

2025-ci ilin aşırımında, 2026-cı ilin astanasında hər birinizi, bütün Azərbaycan xalqını qarşıdan gələn 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, həmrəyliyimizin, birliyimizin bundan sonra da davam etməsini, əbədi olmasını arzulayıram.

Diqqətinizə görə çox sağ olun!

**Sədrlik edən.** Sağ olun, Qafar müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli həmkarlar!

Bu gün biz Ali Məclisin 2025-ci il payız sessiyasına yekun vururuq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 1.5-ci maddəsinə əsasən payız sessiyası dekabrın 30-dək davam edir.

Daxili Nizamnamənin 1.4-cü maddəsinə əsasən deputatlar yanvarın 1-dən 15-dək tətilə buraxılırlar və tətil dövründə deputatlar məzuniyyətdə sayılırlar.

Hörmətli deputatlar!

Sizi və muxtar respublikanın bütün sakinlərini qarşıdan gələn 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, hamınıza cansağlığı, uzun ömür və gələcək fəaliyyətlərinizdə uğurlar arzulayıram.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il payız sessiyasını bağlı elan edirəm.

(*Azərbaycan Respublikasının Dövlət Himni səslənir.*)